**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 186 (1554) 10 oktyabr 2017-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# SƏNƏT MÜLKÜNÜN XAN KAMANDARI

**Dədə Qorquddan bu günümüzədək aşıq sənətinin çox böyük, yaddaşlara həkk olunaraq ölməzlik statusu qazanan unudulmaz ustadları olub. Burada maraqlı cəhət isə odur ki, bu ustadların birinin böyüklüyü digərinin şöhrətinə heç vaxt xələl gətirməyib. Başıqarlı silsilə dağlar kimi hər ustad öz zirvəsində qərar tutub, hər birinin aşıq sənətində öz yeri, öz mərtəbəsi, öz məqamı olub, bir ustad o biri ustadın yerini dar eləməyib. Çünki böyük sənətlə məşğul olublar, böyük sənətkarlıq nümunəsi qoyublar.**

XX əsrdə bir-birini təkrarlamayan, hər biri ayrılıqda bir məktəb olan nəhəng ustadlar Borçalıda da çox olub. Bu dövrü nahaq yerə Borçalı aşıq mühitinin qızıl dövrü adlandırmırlar. Sadıq Sultanov, Xındı Məmməd, Əmrah Gülməmmədov, Əlixan Qarayazılı, Hüseyn Saraçlı, Kamandar Əfəndiyev və adlarını çəkmədiyimiz neçə-neçə ustadlarımız bənzərsiz ifaları ilə sənətdə öz möhürlərini vurublar.

Yuxarıda da qeyd etdiyimiz kimi, böyük ustadların biri digərinin yerini dar etməyib, çünki hər birinin özünəməxsus yolu, özünün dəst-xətti olub. Dediklərimizin sübutu kimi, elə təkcə Borçalı aşıq mühitinin yetirmələri olsalar da, bütövlükdə aşıq sənətinin nəhəng simaları kimi tanınıb şöhrətləri çox-çox uzaqlara yayılmış Əmrah Gülməmmədov, Hüseyn Saraçlı və Kamandar Əfəndiyevin adlarını çəkmək kifayətdir. Eyni dövrdə yaşayıb eyni aşıq mühitini təmsil etsələr də, öz sənətləri ilə hər biri ayrılıqda bir zirvə olublar.

Bu zirvələrdən biri - Kamandar Əfəndiyevin bu il anadan olmasının 85 illik yubileyidir. O Kamandar ki, onilliklər öncə Xalq şairi Xəlil Rza Ulutürk deyirdi:

"Aşıq Kamandarın aşıqlığı və ilhamı saz poeziyasının çox dərin qaynaqlarından süzülüb gəlir". Millət vəkili, akademik Nizami Cəfərov onu sənətin, düşüncənin, mədəniyyətin daşıyıcılarından hesab edir. Aşıq Kamandarı Allahın seçilmiş sevimli bəndəsi adlandıran professor Camal Mustafayev isə onun haqqında belə yazır: "Kamandar təkcə ozan-aşıq deyildi, eyni zamanda yaxşı şair idi. Kamandarın, doğrudan da, səsi, sazı, sözü bir-birini gözəl tamamlayırdı".

Bəs, Aşıq Kamandarın bir ustad kimi böyüklüyünün sirri nədə idi? Bu sualın cavabını ölməz Xalq şairimiz, bu böyük ustadla çox yaxın dost münasibətində olmuş Zəlimxan Yaqubun yazdıqlarında, dediklərində tapmaq mümkündür. X.R.Ulutürkün təbirincə desək, poeziya hökmdarı olan Zəlimxan Yaqub öz sənətinin sultanı, xanı olan Xan Kamandardan söz düşəndə deyərdi ki, onun yerişi, duruşu, qəddqaməti, danışığı, təmkini, ləngərli havacatı, qəm üstündə köklənən dünyası ayrıca öyrənilməli bir məktəbdir: "Kamandar yeganə adamdır ki, hansı havanı daha gözəl çaldığını deyə bilmərəm. Çünki hansı havanı ifa edirdisə, sazın və sözün vəhdəti ilə həmin havaya heykəl qoyurdu. Sanki səs gülüstanı idi. Kamandarın avazından doymaq olmazdı. Səsinin qüdrəti onda idi ki, səni əsrlərin dərinliklərinə aparırdı". Bəli, Aşıq Kamandar oxuduğu hər havaya, söylədiyi hər dastana öz möhürünü vurub. Havanı elə ifa edib, dastanı elə söyləyib ki, ondan sonra həmin havanı, həmin dastanı başqasının ifasında dinləmək bizə onun ifasından aldığımız mənəvi zövqü verə bilməyib.



Aşıq Kamandar sənətiylə bir sehr idi, ovsun idi, möcüzə və əlçatmaz ucalıq idi. Bu sehrdən, bu möcüzədən uzaqlaşmaq olmurdu. Təsadüfi deyil ki, bu gün Borçalıda, Təbrizdə, Qardağda, bir sözlə, sazın səsi gələn hər yerdə sənətə yeni gələnlərin çoxu özünü ona bənzətməyə çalışır, onun yoluyla gedir. Ancaq bu bir həqiqətdir ki, onun yoluyla gedənlər nə qədər çox olsa da, heç kəs Kamandar ola bilməz.

Aşıq Kamandarın bir sənətkar kimi böyüklüyünün sirri bir də onda idi ki, sənət dərsini dövrünün pürkamal, divani yükü, dastan yükü əfsanəvi səviyyədə zəngin olan ustad aşığı Sadıq Sultanovdan və telli sazı Tanrı dərgahına qaldıran ulu Əmrah Gülməmmədovdan almışdı.

Hər sənətkarın böyüklüyü yalnız zamanında özünəməxsus ifası ilə deyil, həm də özündən sonra qoyduğu yolla ölçülür. Kimin ki, açdığı cığırı özündən sonra ot basmır, əksinə bu cığır daha da genişlənərək yola çevrilirsə, o sənətkar əsl ustaddır, dahidir - Aşıq Kamandar kimi. Z.Yaqubun dediyi kimi:

"Bu gün o taylı, bu taylı Azərbaycanın hər yerində aşıqların doxsan faizi Kamandar üstündə gedir. Kim Kamandara daha çox oxşayırsa, biz də onu daha çox sevirik". Və Z.Yaqub həm də haqlı olaraq deyirdi ki, Aşıq Kamandar yolu ilə gedənlərin heç biri Kamandar olmasa da, onun yüzlərlə davamçıları var. O davamçılar Kamandarı həmişə yaşadacaq.

Xalq şairinin bu sözlərinə qüvvət kimi, burada Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar Elm Xadimi, professor Məhərrəm Qasımlının sözlərini də xatırlatmaq yerinə düşər: "Aşıq Kamandar Azərbaycan aşıq sənətində heç kəslə müqayisə olunmayan bir ustaddır.

Yəni Aşıq Kamandarın şagirdlərinin sayı nə üçdür, nə beşdir, nə də on beşdir. Bugünkü Azərbaycan aşıqlarının tam tən yarısı Kamandarın şagirdləri statusundadır".

Təəssüflər olsun ki, belə böyük sənətkarın repertuarı zamanında bütünlüklə yazıya alınmayıb. Bu gün müvafiq arxivlərdə onun professional şəkildə lentə alınmış ifaları azdır. Bunun bir səbəbi də o idi ki, bu böyük sənətkar istedadının müqabilində qayğı və diqqət görmək əvəzinə bəzən biganəlik və ögey münasibətlə qarşılaşmışdı. Təsəvvür edin, 1959-cu ildə Moskvada keçirilən Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyündə Aşıq Kamandar, Aşıq Əmrah və Aşıq Hüseyn Saraçlı uğurla çıxış etsələr də, onlara qarşı çox böyük ədalətsizlik olmuşdu - tədbirdən sonra mükafatlar və fəxri adlar veriləndə demişdilər ki, siz başqa respublikanın nümayəndələri olduğunuza görə təltif oluna bilməzsiniz.

XX əsr Azərbaycan aşıq sənətinin çox böyük simalarından olan ustad sənətkar Əmrah Gülməmmədov dünyasını dəyişəndə Xalq şairi Zəlimxan Yaqub yana-yana deyirdi:

**Deməyin ki, vaxtı başa yetirdik,**
**Saz kamansız, kaman tarsız qalmasın.**
**Aman, ellər, xan Əmrahı itirdik,**
**Sənət mülkü Kamandarsız qalmasın.**

Amma, atalar demiş, sən saydığını say, gör fələk nə sayır. 1932-ci il oktyabrın 21-də dünyaya gələn Aşıq Kamandar 2000-ci il oktyabrın 26-da dünyasını dəyişdi. Onun ölümü sənət dünyasına çox böyük itki oldu, kaman tarsız qalmasa da, sənət mülkü Kamandarsız qaldı. Aşıq Kamandarın ölümünü hər şeydən əvvəl bir şəxsiyyətin ölümü kimi dəyərləndirən Z.Yaqub "Kamandarın ölümü ilə aşıq sənətində böyük dövr qapandı, aşıq sənəti ləngərli havaları, şaqraq nəfəsi itirdi", - deyirdi.

**Sənətdə və sənətkarlıqda, havacatda, dastan söyləməkdə əvəzsiz sənətkar olan Aşıq Kamandar həm də böyük şəxsiyyət kimi bu gün yaddaşlarda yaşayır və min illər boyu da yaşayacaq. Zəlimxan Yaqubun dediyi kimi: "Heç kəsin tənqidindən, tərifindən, yazdığı kitabdan, yazmadığı məqalədən asılı olmayaraq Aşıq Kamandar böyüklüyü zaman-zaman nəsillərin yaddaşında yaşayacaq".**

***Musa NƏBİOĞLU***
***Azərbaycan Aşıqlar Birliyinin katibi,***
***Əməkdar Mədəniyyət İşçisi***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ